بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Hadi (ə)



Kitabın adı: İmam Hadi (ə)
Tərcümə edən: Seyyid Zahir Cavadov
Çap tarixi: 2018
Çap növbəsi: Birinci
Tiraj: 1000

Издательство «Свет»
Типография «Махаон», 2018

ISBN 5-18-120518-3



Adı: Əli (ə)
Məşhur ləqəbi: Hadi, Nəqi
Künyəsi: Əbulhəsən
Atası: Məhəmməd (ə)
Anası: Səmanə
Doğum tarixi: 212-ci hicri-qəməri ili, 15 zilhiccə
Doğulduğu yer: Mədinə
İmamət müddəti: 33 il
Ömrü: 42 il
Şəhadət tarixi: 254-cü hicri-qəməri ili
Qatili: Mötəz (həzrəti zəhərləmişdir)
Dəfn yeri: Samirra (İraq)



## Nurlu təvəllüd

O həzrət Mədinə yaxınlığında Sərya adlı məntəqədə dünyaya gəlib. Atası imam Cavad (ə), anası isə fəzilətli və təqvalı qadın Səmanə xanımdır.
Onun gəlişini imam Cavad (ə) böyük sevinlə qarşıladı və bu səmavi hədiyyəyə görə Allaha çoxlu şükür etdi.

## İmam Hadinin (ə) dövründə siyasi-ictimai vəziyyət

İmam Hadinin (ə) vaxtında başqa dövrlərdən fərqli bir sıra hadisələr daha çox diqqəti cəlb edir. Onlardan bir neçəsi aşağıdakılardır:
1. İstər Əməvilərin, istərsə də Abbasilər dövründə xilafət məqamı özünəməxsus iqtidara malik idi. Amma bu dövrdə artıq hakimiyyətdə olanlar öz yaxın adamları, qohum-əqrəbaları, hətta qullarını belə iş başına gətirir və xilafətin zahiri təmtarağından başqa bir mahiyyəti yox idi. Hökumət adamları xilafəti istədikləri kimi idarə edir və xəlifə isə yalnız simvolik xarakter daşıyırdı. Amma buna baxmayaraq müxaliflər tərəfindən bir təhlükə yarandıqda, xəlifə və bütün ətrafındakılar onu aradan qaldırmaq üçün birləşir, yekdil qənaətə gəlirdilər.
2. Abbasi hakim dairələri əyləncə və eyş-işrətlə qurşanaraq günlərini istədiyi kimi keçirir, fəsad baş alıb, gedirdi. Onların bu əyləncə və əyyaşlıqlarının hamısı tarixdə qeyd edilib.
3. Hər yeri bürüyən zülm və haqsızl, beytül-malın qarəti, əyləncə və əyyaşlıq camaatı təngə gətirmişdi.
4. Bu dövrdə şiə qiyam və hərəkatları daha çox müşahidə olunur. Odur ki, Abbasilər hakimiyyəti qorumaq üçün xalqda onlara qarşı nifrət hissi yaratmağa çalışır, ələvilərin hər hansı kiçik fəaliyyət və qiyamını dər-

hal amansızcasına alırdılar. Bunun əsas səbəbi müsəlmanlarda azğın hakimiyyətə qarşı baş qaldıran dirçəliş və oyanış idi və daha bu sülalə ifşa edilən iç üzünü qorumağa qadir deyildi.

## İmam Hadinin (ə) gizli fəaliyyətləri

İmam Hadinin (ə) imaməti dövrünün çoxu Abbasi xəlifələri arasında Mütəvəkkilin zamanına düşür.

Mütəvəkkil Bəni Haşimə qarşı çox sərt idi və kin-küdurətini gizlətmirdi. Onun vəziri Übeydullah ibn Yəhya ibn Xaqan da, həmişə Əli (ə) nəslinə qarşı böhtanlar uyduraraq xəlifəni onlarla pis davranmağa təhrik edirdi. Mütəvəkkil ələvilərə qarşı zülm və insafsızlıqda bütün Abbasi xəlifələrini keçmişdi. Onda Əli (ə) nəslinə qarşı misilsiz düşmənçilik baş qaldırmışdı. İmam Əliyə (ə) rəğbət bəsləyənin kimliyindən asılı olmayaraq bütün var-dövləti müsadirə edilir və özünü də qətlə yetirilirdi.

Odur ki, imam Hadi (ə) də Mütəvəkkilin dövründə öz fəaliyyətini gizli şəkildə aparır, şiələrlə münasibətdə son dərəcə ehtiyatı gözləyir, onlarla rabitələr məxfi surətdə baş verirdi.



Məhəmməd ibn Şərəf deyir ki, bir dəfə Mədinədə imam Əliyyən-Nəqi (ə) ilə birgə yol gedirdim. İmam soruşdu: "Sən Şərəfin oğlusanmı?" Dedim: Bəli. Sonra o həzrətə bir sual vermək istədim. İmam məni qabaqlayıb, buyurdu: "Biz indi camaatın çox get-gəl etdiyi küçədəyik, bura sual soruşmaq üçün münasib deyil.





## İmamın ehtiyaclılara yardımı

Əbu Haşim Cəfəri deyir: Bir dəfə ağır maddi çətinliyə düşdüm. İmam Hadinin (ə) hüzuruna getdim. Yer verib, oturduqdan sonra həzrət buyurdu: “Ey Əbu Haşim! Allahın sənə verdiyi nemətlərin hansı birinin şükürünü yerinə yetirmisən?”

İstər-istəməz sükut etdim və deyəcəyimi bilmədim. İmam özü buyurdu: “Allah sənə iman verib, cismini cəhənnəm odundan qoruyur, sənə sağlamlıq verib, Ona itaət üçün yardım edir, sənə qənaət xisləti verib, abır-heysiyyətini qoruyur.

Ey Əbu Haşim! Mən bunları ona görə deyirəm ki, məncə sən onları verən kəsdən mənə şikayət etmək fikrindəsən. Hər halda tapşırmışam ki, sənə yüz dinar versinlər. Veriləndə, təhvil al.”

## Gizlindən xəbər vermək

İsfahanlı Əbdürrəhman adlı bir şiə bu məzhəbi seçməyi və imam Hadiyə (ə) etiqadı, habelə o həzrətdən bir möcüzə görməsi barədə təəssüratını belə nəql edir:

“Özüm kasıb və yoxsulun biri olsam da cürətim və danışmağa dilim vardı. Ona görə də Mütəvəkkilin dövründə İsfahan əhalisi məni bir nümayəndə heyətilə mübahisəli bir məsələdə öz haqqımızı əldə etmək üçün onun yanına göndərdi. Bir gün Mütəvəkkilin imarətinin yanında dayandığımız zaman xəlifənin əmri ilə Əli ibn Məhəmməd ibn Rzanın onun hüzuruna gətirilməyinin şahidi olduq. Mən orada olanların birindən həmin şəxsin kim olduğunu soruşdum. Dedi ki, ələvidir və rafizilər onu özlərinin imamı hesab edirlər. Ola bilsin, xəlifə onun canına qəsd etmək fikrindədir.

Mən onu görmək üçün yerimdən tərpənmədim. Gördüm, bir nəfər belində Mütəvəkkilin imarətinə tərəf gəlir. Camaat ona hörmət əla-

məti olaraq yolun hər iki tərəfində sıraya düzülərək ona tamaşaya başladılar. Ona baxanda bir anlıq məhəbbəti qəlbimə doldu və dua etməyə başladım ki, Allah onu Mütəvəkkilin şərindən qorusun. Həzrət camaatın arası ilə sağa-sola baxmadan gedir, mən də ardıcıl olaraq dua edirdim. İmam mənə çatdıqda, üzümə baxıb, buyurdu: “Allah duanı qəbul etdi! Sənə uzun ömür verib, mal-övladını artıracaq.”

Bu sözü eşidəndə, bədənim əsdi və özümdən gedərək dostlarımın arasında yerə yıxıldım. Özümə gəldikdə, onlar nə baş verdiyini soruşdular.. Dedim ki, inşallah xeyirdir və heç nəyi bildirmədim.

İsfahana qayıtdıqdan sonra mənim var-dövlətim artı və hal-hazırda evdən kənarda olan sərvətim minlərlə dirhəmə çatır. Bun dan əlavə, on övlad sahibi oldum və ömrüm də artıq yetmişi ötmüşdür.

Odur ki, ürəyimdən keçənləri oxuyan və barəmdə duası qəbul olan şəxsin imamlığına tam etiqadım var.



## Mütəvəkkilin məmurunun xəbərdarlığı

Mütəvəkkil də öz sülaləsinin yolunu tutaraq imam Hadinin (ə) fəaliyyətlərini nəzarətdə saxlamaq, onun hökumətə qarşı qiyam və başqa hərəkət edə bilməyəcəyinə əmin olmaq istəyirdi. Ona görə, imamı Mədinədən Samirraya çağırdı. Onu (ə) Mədinədən Samirraya gətirməyə təyin edilən Yəhya ibn Hərsəmə bu hadisəni belə nəql edir:

“Mədinəyə çatandan sonra Əliyyən-Nəqinin (ə) evinə getdim. Deməк, bu xəbər camaat arasında yaylan kimi şəhərə böyük çaxnaşma düşdü.



Onlar elə hay-küy qopartdılar ki, o günədək mislini görmımişdim. Mən onları sakitləşdirməyə çalışaraq dedim ki, arada heç bir pis niyyət yoxdur və mən də bura onu incitmək üçün gəlməmişəm.

Daha sonra onun evində axtarış apardım. Onun özünəməxsus otağında bir neçə Quran və dua kitabından başqa bir şey yox idi. Neçə məmur onu evdən çıxartdı və özüm isə evdən Samirraya qədər onun kənarında oldum. Bağdada gəldikdə, ilk növbədə şəhərin əmiri İshaq ibn İbra-

him Tahiri ilə qarşılaşdım. O, mənə dedi: "Yəhya, bu şəxs Peyğəmbər (s) öv-ladıdır! Mütəvəkkili onu öldürməyə təhrik etsən, bil ki, daha düşmənin Peyğəmbərdir (s)!" Mən də dedim: "Allaha and olsun, mən bu vaxt ərzində ondan bir pislik görməmişəm ki, Mütəvəkkili onu öldürməyə təhrik edim." Sonra Samirraya tərəf yola düşdüm. Nəhayət, Samirraya çatdır və Mütəvəkkilin sarayına daxil olub, ona təzimdən sonra səfər haqda məlumat verdim.

## İmamın Samirraya gəlişi

Mütəvəkkilin göstərişi üzrə imam Hadi (ə) Samirraya gəldiyi gün o həzrətə yer hazırlanmaması bəhanəsilə imamı bir gecə "Xanus-səvalik" (kimsəsizlər karvansarası) adlanan bir yerdə saxladılar.

Bu hərəkətdən məqsəd bir növ imama qarşı hörmətsizlik və həzrəti təhqir etmək olmuşdur.

Saleh ibn Səid kimi dövlət işlərindən anlayışı olan bir şəxs bunu başa düşərək imama deyir: "Bunlar daim sizin nurunuzu söndürməyə çalışırlar. Ona görə sizi bu karvansaraya gətiriblər."

Ertəsi gün o həzrətə bir ev təyin olundu və bundan sonra imam orada qalmağa başladı.

İmam Hadi (ə) bu şəhərdə zahirdə azad olsa da, əslində elə bil, həbsdə idi. Çünki o həzrətin qaldığı yer, onun yanına gedib- gələnlər və bütün işləri daim xəlifənin məmurlarının nəzarəti altında idi.

Məsihi həkim Yəzdad imam Hadinin (ə) Samirəyə məcburi gətirilməsi barədə belə deyir: "Əgər qeyb aləmindən xəbəri olan varsa, o da məhz bu şəxsdir. Onu bura gətizdirməkdə məqsəd camaatın ona tərəf meylinin qarşısını almaqdır. Çünki o, həyatda ikən hakimiyyət həmişə təhlükə altında idi."





## Dostlara təskinlik

İmam Hadinin (ə) dostlarından və şiələrindən olan Yunis Nəqqaş deyir:
Bir gün pərişan və qorxu içində imam Hadinin (ə) yanına gəlib dedim: Ey mənim mövlam, ailəmi sənə tapşırıram. Onlara himayə durun.
İmam buyurdu: "Nə olmuşdur?"
Dedim: Artıq ölümüm çatıb.
İmam təbəssüm edərək buyurdu: "Nə üçün, ey Yunis?"
Dedim: Mütəvəkkilin qoşun başçısı Musa ibn Buğa mənə qiymətli



daş-qaş vermişdi ki, onun üzərinə naxış salım. Ancaq ehtiyatsızlıq üzündən mənim əlimdən düşərək iki yerə bölündü. Səhər üzüyü təhvil verməliyəm. Əgər Musa daş-qaşı sındırdığımı görsə, mənim qətlimə, ya da mənə min qamçı vurulmasını əmr edəcək.
İmam buyurdu: "Arxayın evinə qayıt. Səhərə qədər xeyirdən başqa heç bir hadisə baş verməyəcək."
Çox narahat halda evimə qayıtdım və o gecəni min zəhmətlə başa vurub, sübh tezdən çox pərişan və narahat halda yenə imam Hadinin (ə) evinə gedib, dedim: Musanın adamı gəlib, daş-qaşı məndən istəsə nə edim?
İmam buyurdu: "Musanın evinə get. Xeyirdən başqa bir şey görməyəcəksən."
Yenə iztirabla soruşdum: Ey mənim mövlam! Musaya nə deyim?
İmam Hadi (ə) təbəssümlə buyurdu: "Musanın yanına get və hər nə desə, qulaq as. Xeyirdən başqa heç nə olmayacaq."
Yunis deyir ki, Musanın evinə getdim. Sonra şad və gülə-gülə imam Hadinin (ə) yanına qayıdıb dedim: Ey mənim mövlam! Musanın yanına getdim. O, mənə dedi ki, kiçik qızlarım bu daş-qaşa görə dava-dalaş salıblar. Əgər mümkündürsə, onu iki yerə böl və hər birinin üstündə ayrı-ayrı naxış sal. Bu iş üçün sənə ayrıca bir mükafat da verəcəyəm.
Şiələrdən biri Allahın köməyi və onun duası ilə zalımın şərindən xilas olduğu üçün imam Hadi (ə) Allaha həmd və şükür etdi. Sonra soruşdu: "Bəs, Musaya nə dedin?"
Dedim: Onu iki yerə bölüb, düzəltmək üçün mənə möhlət ver.

## İmam öz tarlasında işləyir

İmam Hadi (ə) də adi insanlar kimi özü və ailəsinin məişətini təmini üçün tarlasında işləyir, zəhmət çəkirdi.
Əli ibn Həmzə deyir: Əbulhəsən salisi (imam Hadini) gördüm, ayaqları tər içində tarlasında işləyirdi. Dedim: Sənə qurban olum, bəs işçilərin haradadır?
Həzrət buyurdu: “Ey Əli! Atam və məndən üstün olanlar öz tarlalarında işləyib, zəhmət çəkirdilər.”
Dedim: Onlar kimlər idi?
Buyurdu: “Allahın rəsulu (s), imam Əli (ə) və bütün əcdadımız zəhməti özlərinə fəxr biliblər. Bu, nəbilərin, mürsəllərin, övsiya və saleh insanların səciyyəsidir.”



## Şirlərin imama ehtiramı

Məsud belə nəql edir:
Bir dəfə Mütəvəkkil üç baş yırtıcı şiri sarayın həyətinə gətizdirəndən sonra imam Hadini (ə) də sarayına dəvət etdi. İmam sarayın həyətinə daxil olanda onun əmri ilə sarayın qapıları bağlandı və həzrət şirlərin arasında tək qaldı. Şirlər imamın yanına gəlib, onun qarşısında ehtiramla oturdular və ərdən bir özlərini imama sürtməyə başladılar. İmam da mehribanlıqla onlara nəvaziş göstərdi. Daha sonra şirlərə əmr etdi ki, kənara çəkilib, yolu açsınlar. Şirlər də bir tərəfə çəkildilər və həzrət (ə) də Mütəvəkkilin yanına getdi. Onlar bir müddət söhbət etdilər. Sonra yenə geri qayıtdı. Qayıdarkən yenə şirlərlə qarşılaşdı və eyni hadisə yenə təkrar oldu. Nəhayət, imam sarayı tərk etdi. Daha sonra Mütəvəkkil o həzrətə böyük bir hədiyyə göndərdi.
Mütəvəkkilə dedilər: Gördün ki, sənin əmin oğlun (imam Hadi) yırtıcı heyvanlarla necə rəftar etdi. Gəl, sən də bu içi gör! Mütəvəkkil dedi: Siz məni öldürməkmi istəyirsiniz?
Sonra tapşırdı ki, bu barədə heç nə danışılmasın.

## İmamın xəstələrə dərman göndərməyi

Zeyd adlı bir nəfər deyir: Ağır xəstəliyə tutulmuşdum. Gecə yarısı həkim gətirdilər. Ancaq müalicəm üçün lazım olan isə nadir tapılan dərmanlardan idi. Həkim hələ evdən çıxmamışdı ki, imam Hadinin (ə) Nəsr adlı xadimi bizim evimizə gəldi. Müalicəm üçün şüşə qabda dərman gətirib, dedi: İmam Hadi (ə) sənə salam çatdırır və buyurur ki, bu dərmandan neçə gün istifadə et.
Dərmanı içəndən sonra sağaldım.



## Roma kralının müsəlman olması

Roma kralı xəlifəyə belə bir məktub yazmışdı: "Bizim müqəddəs İncil kitabımıza əsasən, hər kəs saf niyyətlə ondan bu yeddi hərf olmayan bir surəni oxusa, Allah-taala onu cəhənnəm oduna atmaz. O yeddi hərf bunlardır: sə ( ), cim ( ), xa ( ), zə ( ), şin ( ), za ( ), fə ( ) ."
Biz nə qədər araşdırsaq da Tövrat, Zəbur və İncil kitablarında belə bir surətə rast gəlmədik. Sizin səmavi kitabınızda belə bir surə varmı?
Xəlifə bütün alimləri bir yerə toplayıb, bu məsələni müzakirəyə qoydu. Onlar nə qədər araşdırsalar da, suala cavab tapa bilmədilər. Nəhayət, sualın cavabını imam Hadidən (ə) soruşdular. Həzrət buyurdu: "Bu, Həmd surəsidir. Həmd surəsində bu yeddi hərf yoxdur."



İmam (ə) həmin hərflərin Həmd surəsində olmamasını da belə izah etdi: "Sə hərfi "səbur" (həlak olmaq), cim hərfi cəhənnəmin adlarından biri olan "cəhim", xa hərfi "xəbis", zə hərfi "zəqqum" (cəhənnəmdə çox acı və zəhərli meyvəsi olan bir ağac), şin hərfi "şəqavət" (bədbəxtlik), za hərfi "zülmət" (qaranlıq) fə hərfi isə "afət"ə (bəla və zərər) işarədir."
Xəlifə həzrətin cavabını Roma kralına yazdı. Kral məktubu oxuduqdan sonra çox sevindi. O, İslamı qəbul edib, müsəlman oldu və bir müsəlman kimi dünyadan köçdü.

## Mütəvəkkilin mühafizi imam Hadinin (ə) tərəfdarı



Səğir ibn Əbu Dəlf deyir: İmam Hadi (ə) Samirraya gətirildikdən sonra onun əhvalından xəbər tutmaq üçün yanına getdim. Mütəvəkkilin mühafizlərindən olan Zərrafi məni görüb, dedi ki, gəl içəri. İçəri keçdikdən sonra məndən gəlişimin səbəbini soruşdu. Dedim ki, xeyirdir. Dedi: Otur.

Oturdum. Ancaq qorxuya düşdüm və fikrə gedərək dedim ki, səhv eləmişəm (ki, belə təhlükəli işə əl atıb, imamın görüşünə gəlmişəm).

Zərrafi camaatın işini həll edib, oradakıları yola saldı. Ara sakitləşdikdən sonra məndən soruşdu:

- Nə üçün gəlmisən, işin nədir?
- Xeyir iş üçün gəlmişəm.
- Deyəsən, öz mövlanın əhvalını soruşmağa gəlmisən?
- Mövlam kimdir? Mənim mövlam xəlifədir.
- Sus, haqq sənin mövlan ilədir. Qorxma, mən də səninlə həmfikirəm və onu imam bilirəm.

(Bunu eşitcək) Allaha şükür etdim. Sonra o mənə dedi:

- Onu görmək istəyirsənmi?
- Bəli.
- Bir az otur, qoy, qasid Sahibul-Büreyd getsin.

Qasid getdikdən sonra məni xadiminə göstərərək dedi: Bunu o ələvi saxlanıldığı otağa apar, özün isə qayıt."

İmamın hüzuruna yetişdikdə, gördüm ki, o həzrət bir həsirin üstündə oturub, qarşısında da bir qəbir qazılmışdır. Salam verdim. Buyurdu ki, əyləş. Oturduqdan sonra məndən soruşdu: "Nə üçün gəlmisən?" Dedim ki, sizdən bir xəbər almaq üçün gəlmişəm. Sonra qəbirə baxıb, ağladım. İmam buyurdu: "Ağlama, hələ məni bir təhlükə gözləmir." Allaha şükür etdim. Sonra o həzrətdən bir hədisin mənası barədə soruşdum. İmam cavabımı verdikdən sonra buyurdu: "Kifayətdir, dur, get. Qorxuram, sənə bir zərər dəysin!"





## İmam Hadinin (ə) səhabəsi Əbdüləzim Həsəni

Əbdüləzim Həsəni ravi, alim və dövrünün böyük şəxsiyyətlərindən olub, zöhd və təqvada da yüksək məqam sahibi idi. İmam Sadiq (ə), imam Kazim (ə) və imam Rzanın (ə) bir sıra böyük səhabələri ilə görüşmüş, onlardan təlimlər almışdı. Özü də imam Cavadın (ə) və imam Hadinin (ə) tanınmış səhabə və rəvayətçilərindən sayılırdı.

Əbu Həmmad Razi deyir: Bir sıra məsələlər soruşmaq üçün imam Hadinin (ə) yanına getmişdim. Durub, getmək istəyəndə imam buyurdu: "Belə məsələlərlə qarşılaşdıqda, Əbdüləzim Həsənidən soruş və mənim salamımı da ona çatdır!"

İmam Hadi (ə) onun iman və etiqadının kamil olduğunu təsdiq etmişdir. O, deyir: Bir dəfə imam Hadinin (ə) hüzuruna getdim. İmam məni görən kimi buyurdu: "Əhsən sənə, ey Əbülqasim! Sən doğrudan da bizim sirdaşımızsan."

Dedim: Ey Peyğəmbər övladı! İstəyirəm əqidəmi sizə açam. Əgər siz onu təsdiq etsəniz, Allahla görüşənə qədər bu etiqadımda daha möhkəm dayanım. İmam buyurdu: "De."

Dedim: Mənim mötəqidəm ki, Allah təbarək və taala vahiddir, onun misli-bərabəri və bənzəri yoxdur. Allah nə cisimdir, nə keyfiyyət və nə cövhər. Üstəlik, O, cisimləri yaradan, onlara surət verən, keyfiyyət və cövhəri xəlq edən, hər şeyin rəbbi, maliki, qərar verəni və vücuda gətirənidir.

Mötəqidəm ki, Məhəmməd (s) Allahın bəndəsi, Onun sonuncu elçisidir və ondan sonra qiyamətədək heç bir peyğəmbər gəlməyəcək. Onun din və şəriəti bütün din və şəriətlərin sonuncusudur və ondan sonra qiyamətə kimi heç bir din və şəriət gəlməyəcək.

Mötəqidəm ki, Peyğəmbəri-əkrəmdən (s) sonra imam, canişin və vəli Əmirəlmöminin Əli ibn Əbu Talib, ondan sonra (tərtiblə) Həsən, Hüseyn, Əli ibn Hüseyn, Məhəmməd ibn Əli, Cəfər ibn Məhəmməd, Musa ibn Cəfər, Əli ibn Musa, Məhəmməd ibn Əli, sonra da siz mənim mövlamsınız.

İmam buyurdu: "Məndən sonra da imam oğlum Həsəndir. Camaat

Həsənin övladı barədə necə düşünür?”
Dedim: Ey mənim mövlam, camaat nə düşünür?
Buyurdu: “O, qeybə çəkiləcək və heç kəs onu görməyəcək. Onun adını deməyə icazə yoxdur. Sonra qiyam edəcək və zülm ilə dolmuş yer üzünü ədalətlə dolduracaq.”
Sonra yenə etiqadımı saymağa başladım:
Mötəqidəm ki, onların (məsum imamlar) dostu, Allahın dostudur, düşməni isə Allahın düşmənidir. Onlara itaət, Allaha itaət, onlara itaətsizlik isə Allaha itaətsizlikdir.
Mötəqidəm ki, merac, qəbirdə sual-cavab, cənnət və cəhənnəm, sirat, mizan haqdır. Qiyamət gününün olacağına heç bir şəkk-şübhə yoxdur. Allah ölüləri dirildəcək.
Mötəqidəm  ki, vilayətdən sonra dinin vacibləri namaz, zəkat, oruc, həcc, cihad, yaxşılığa dəvət və pislikdən çəkindirməkdir.
İmam buyurdu: “Ey Əbdüləzim! Allaha and olsun, bu Allah-taalanın öz bəndələri üçün bəyəndiyi etiqadın əsaslarıdır. Öz etiqadında möhkəm dayan.”



## İmam Hadinin (ə) şəhadəti

İmam Hadi (ə) Samirra şəhərində Abbasi sülaləsinin ciddi nəzarəti altında saxlanılmasına baxmayaraq ən çətinliklərdə belə zalımlarla saziş etmir, lazım gəldikdə, öz qəti mövqeyini açıq bildirirdi. O həzrətə xalq arasında olan yüksək hörmət və sevgi xəlifələri həmişə narahat edirdi.
Nəhayət, Mütəvəkkil öz oğlu Müntəsirin əli ilə qətlə yetirildi və o, hakimiyyətə gəldi. Ondan sonra da Mötəzzə çatdı.
Mötəzz xilafət kürsüsünə oturan kimi zülmə başladı. Bununla belə imam Hadinin (ə) fəaliyyətləri ona açlq-aşkar çirkin məqsədlərinə çatmağa imkan vermirdi. Odur ki, imamı qətlə yetirməyi qərara aldı. Nəhayət, günlərin bir günü imamı zəhərlədi. İmam Hadi (ə) 254-cü hicri-qəməri ili şəhid oldu və Samirrada evində dəfn edildi.



## O həzrətin kəlamlarından:

“Bəla səbirli şəxsə bir, səbirsizə isə ikidir.”

“Özünü bəyənmək insanı elmdən saxlayar.”

“Öz dəyərini anlamayan adamın şərindən qorun.”



# İmam Hadi (ə)

